RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 144 (8737) ÇƏRŞƏNBƏ AXŞAMI, 13 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Heydər Əliyevin başladığı və İlham Əliyevin yekunlaşdırdığı möhtəşəm layihə

## 2006-cı il iyulun 13-də tam sistem kimi istifadəyə verilən BTC digər qlobal layihələrə də yol açdı

**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin tam sistem kimi istifadəyə verilməsindən 15 il keçir. Ötən dövr ərzində bu möhtəşəm kəmər ahəngdar şəkildə fəaliyyət göstərərək Azərbaycan neftini dünya bazarlarına çatdırıb.**

Hazırda BTC əsasən Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan nefti və "Şahdəniz"dən hasil olunan kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən müəyyən miqdarda Türkmənistan, Rusiya və Qazaxıstan nefti də nəql olunur.

Əslində, BTC-yə Bakı yaxınlığındakı Səngəçal terminalından ilk neft 2005-ci ilin mayında vurulub. Neft Türkiyənin Ceyhan limanına bir il sonra - 2006-cı ilin mayında çatıb. BTC-nin gətirdiyi neftlə yüklənmiş ilk tanker dünya bazarına iyun ayında yola salınıb. Kəmərin tam sistem kimi işə düşməsi münasibətilə təntənəli mərasim isə Ceyhan şəhərində iyulun 13-də keçirilib. Tədbirdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət başçıları, səhmdar şirkətlərin rəhbərləri, hörmətli qonaqlar iştirak ediblər. Prezident İlham Əliyev BTC-nin istifadəyə verilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edərək deyib: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

Əvvəlcə gündə 1 milyon barel neft ötürmək gücündə layihələndirilən kəmərin nəqletmə qabiliyyəti sonralar 20 faiz artırılıb. Hazırda BTC hər gün 1,2 milyon barel neft ötürmək gücünə malikdir.

BTC Ko.-nun səhmdarları bp (30,1 faiz), AzBTC (25 faiz), MOL (8,9 faiz), "Ekvinor" (8,71faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), İTOÇU (3,4 faiz), İNPEKS (2,5 faiz), "EksonMobil" (2,5 faiz) və ONGC (BTC) Limited (2,36 faiz) şirkətləridir.

Operator olan bp-nin məlumatına görə, istismara veriləndən 2021-ci ilin birinci rübünün sonunadək bu boru kəməri ilə ümumilikdə təqribən 482 milyon ton (3,62 milyard barel) xam neft nəql edilib. Bu neft Ceyhanda 4729 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Cari ilin ilk üç ayı ərzində isə Ceyhan terminalından 70 tanker yüklənib və yola salınıb. Bu gəmilərə 6,7 milyon tondan artıq (təqribən 51 milyon barel) xam neft və kondensat yüklənib.

Beləliklə, BTC ona bəslənən ümidləri layiqincə doğruldur. Həm də illər keçdikcə bu kəmərin əhəmiyyəti artır. Onun uğurlu fəaliyyəti Azərbaycanın yeni neft strategiyasının təntənəsi və həmin strategiyanın daha qlobal layihələrlə zənginləşməsinin təsdiqidir.

*Ardı 2-ci səh.*

◆ Müəllifi İlham Əliyevdir

## Səyyar xidmət - vaxta qənaət, hər kəsə diqqət

### Cənub bölgəsinə səfərə çıxan "ASAN qatar" iyul-avqust aylarında Lənkəran və Astarada vətəndaşların xidmətində olacaq

**...Lənkərandayıq. Hava isti olsa da, buradakı dəmir yolu stansiyasına xeyli insan toplaşıb. Hər kəsin üzündə bir təbəssüm var. Bir qədər sonra stansiyada dayanmış qatarın qapıları açılır və minik başlanır. Növbəlilik prinsipi qorunmaqla insanlar vaqonlara daxil olurlar.**

Bu, regionlararası dəmir yolu nəqliyyat vasitəsi yox, milli brendimiz olan "ASAN xidmət"in səyyar qatarıdır. Bu qatarda vətəndaşlara rahat xidmət göstərilir. Biz də qatara daxil olub proseslə yaxından maraqlanırıq.

### Bu il səyyar "ASAN xidmət"ə 103 minə yaxın müraciət daxil olub



Öncə onu deyək ki, Prezident İlham Əliyevin yaratdığı yeni Azərbaycan brendi qısa müddətdə xalqın böyük etimad və rəğbətini qazanıb. Dövlət başçısının həyata keçirdiyi islahatların real təzahürü olan "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqlarla təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası reallaşdırılıb.

*Ardı 5-ci səh.*

## Prezidentlər MDB-nin cənub sərhədlərində vəziyyətin kəskinləşməsinə görə ciddi narahatlıq ifadə ediblər



**İyulun 12-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Dövlət başçıları Tacikistan-Azərbaycan ikitərəfli münasibətlərinin aktual aspektlərini, xüsusən tərəflərin iqtisadi-ticari əlaqələrini müzakirə edərək, son illərdə bu əlaqələrin inkişafının müsbət dinamikasını vurğulayıblar.

Tərəflər Əfqanıstanda hazırkı hərbi-siyasi vəziyyətə xüsusi diqqət ayırıblar.

Bununla əlaqədar, Emoməli Rəhmon Əfqanıstanın Tacikistanla həmsərhəd əyalətlərində yaranan həyəcanlı vəziyyət barədə Azərbaycan Prezidentini ətraflı məlumatlandıraraq, MDB-nin cənub sərhədlərində vəziyyətin kəskinləşməsinə görə ciddi narahatlıq ifadə edib.

Tacikistan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Prezidentini onun üçün münasib vaxtda Tacikistana rəsmi səfərə dəvət edib. Azərbaycan Prezidenti dəvəti minnətdarlıqla qəbul edib.

Səfərin vaxtı diplomatik kanallarla razılaşdırılacaq.

***Prezidentin Mətbuat Xidməti***

## İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya

Hörmətli cənab Prezident!

Futbol üzrə İtaliya milli yığma komandasının Avropa çempionu adını qazanması münasibətilə Sizi və Sizin simanızda bütün dost İtaliya xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Avropa birinciliyinin bütün oyunlarında yüksək ustalıq, böyük əzmkarlıq, yenilməz iradə nümayiş etdirmiş və öz tarixində ikinci dəfə bu yüksək titulu qazanmış İtaliya futbolçularına ən səmimi təbriklərimizi yetirir, onlara yeni-yeni uğurlar arzulayıram.

Əminəm ki, Azərbaycan ilə İtaliya arasındakı ənənəvi dostluq münasibətlərinin daha da genişlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın və strateji tərəfdaşlığımızın dərinləşməsi yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu əlamətdar anlarda sevincinizə qoşulur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İtaliya xalqına daim rifah və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2021-ci il*

## Monteneqronun Prezidenti zati-aliləri cənab Milo Cukanoviçə

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan Respublikası ilə Monteneqro arasındakı münasibətlər uğurla inkişaf edir. İnanıram ki, ənənəvi dostluq əlaqələrimiz, qarşılıqlı faydalı əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq genişlənəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Monteneqro xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2021-ci il*

## Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin 80-ci sessiyasında Azərbaycan Respublikası Hökumətinin altıncı dövri məruzəsinin təqdimatında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin 2021-ci il oktyabrın 18-dən noyabrın 5-dək Cenevrə şəhərində keçiriləcək 80-ci sessiyasında Birləşmiş Millətlər Təşkilatının "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyası üzrə Azərbaycan Respublikası Hökumətinin altıncı dövri məruzəsinin təqdimatında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

**Nümayəndə heyətinin rəhbəri**

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Nümayəndə heyətinin üzvləri**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq hüquq və müqavilələr idarəsinin rəisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Sosial müdafiə, sosial təminat və səhiyyə sahələrinin maliyyəsi şöbəsinin müdiri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2021-ci il*

◆ Ciddi siqnal

## Cəlilabadda taxıl istehsalı niyə azalıb

### Keyfiyyətsiz toxum və əkinçilərə edilməli olan yardımların gecikdirilməsi "Azərbaycanın Ukraynası"nda məhsuldarlığı aşağı salıb

**Cəlilabad iri kənd təsərrüfatı rayonudur. Xüsusən bu bölgənin taxılı Azərbaycanın ərzaq təhlükəsizliyinin təminatında mühüm rol oynayır. Hələ sovetlər zamanında taxılçılıqda qazandığı nailiyyətlərə və istehsalın həcminə görə Cəlilabadı "Azərbaycanın Ukraynası" adlandırırdılar.**

Əfsuslar olsun ki, rayonda bu il taxılçılıq üzrə əldə olunan nəticələr ürəkaçan deyil. Rəqəmlərdən başlayaq: keçən ilin payızı rayonda 66 min 570 hektar sahəyə taxıl əkilmişdir ki, bunun da 56 min 500 hektarı buğda, 5 min 200 hektarı arpa və 4 min 870 hektarı vələmirdir. Artıq taxıl biçini başa çatmışdır. Hər hektardan 24,9 sentner buğda, 21,9 sentner arpa, 17 sentner vələmir götürülmüşdür. Kənd təsərrüfatından az-çox başı çıxan hər kəs bu rəqəmlərin Cəlilabad üçün aşağı göstəricilər olduğunu deyir. Müqayisə üçün bildirək ki, torpağının münbitliyinə görə Cəlilabaddan aşağı olan Biləsuvar rayonunda cari mövsüm hər hektardan 28,2 sentner buğda, 26,3 sentner arpa biçilmişdir.

Elə Cəlilabadın özündə keçən il bu sahələr üzrə rəqəmlər müvafiq olaraq 28, 22 və 18 sentner olmuşdur.

Cəlilabad taxılçıları da heç vaxt belə halla rastlaşmadıqlarını söyləyirlər. Ələkbər Abbasov rayonun Günəşli kəndində yaşayır. Ağlı kəsəndən taxıl əkib-becərir.

*Ardı 5-ci səh.*

## "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669; 2019, № 1, maddə 35, № 3, maddə 381, № 12, maddə 1892; 2020, № 1, maddə 1, № 5, maddə 521, № 7, maddə 831, № 9, maddə 1136; 2021, № 2, maddə 113) aşağıdakı məzmunda 24.12-ci və 24.13-cü maddələr əlavə edilsin:

"24.12. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu Qanunun 24.2-ci maddəsinə uyğun olaraq özünüməşğulluğa cəlb olunmuş şəxslərin fəaliyyətinin müqavilə müddətində monitorinqini (elektron monitorinq istisna olmaqla) aparan işçilərinə nəqliyyat xərcləri üçün "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19.0.2.5-ci maddəsində nəzərdə tutulmuş vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə kompensasiya ödənilir.

24.13. Bu Qanunun 24.1.3-cü maddəsində nəzərdə tutulmuş təlimlərin keçirilməsi ilə bağlı "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19.0.2.5-ci maddəsində nəzərdə tutulmuş vəsait hesabına ödənilən təlim xərclərinin, o cümlədən təlim materiallarının hazırlanması xərcləri və təlimçilərə ödənilən haqqın məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 may 2021-ci il*

## "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 336-VIQD nömrəli Qanununun tətbiqi və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 avqust tarixli 233 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 336-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 24.12-ci (hər iki halda) və 24.13-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 24.12-ci (hər iki halda) və 24.13-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 336-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

3.1. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 24.12-ci maddəsinə uyğun olaraq, özünüməşğulluğa cəlb olunmuş şəxslərin fəaliyyətinin müqavilə müddətində monitorinqini (elektron monitorinq istisna olmaqla) aparan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçilərinə nəqliyyat xərcləri üçün "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19.0.2.5-ci maddəsində nəzərdə tutulmuş vəsait hesabına ödənilən kompensasiyanın məbləğini bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. həmin Qanunun 24.13-cü maddəsinə uyğun olaraq, həmin Qanunun 24.1.3-cü maddəsində nəzərdə tutulmuş təlimlərin keçirilməsi ilə bağlı "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19.0.2.5-ci maddəsində nəzərdə tutulmuş vəsait hesabına ödənilən təlim xərclərinin, o cümlədən təlim materiallarının hazırlanması xərclərinin və təlimçilərə ödənilən haqqın məbləğini bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 336-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1683; 2019, № 7, maddə 1217; 2020, № 5, maddə 561, № 9, maddə 1142) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "24.11-ci," sözlərindən sonra "24.12-ci (hər iki halda), 24.13-cü," sözləri əlavə edilsin;

4.2. 2.3-cü bənd ləğv edilsin;

4.3. 2.4-cü bənddə "və 35.2-ci maddələrində" sözləri "maddələrində, 33.2-ci maddəsinin ikinci cümləsində və 35.2-ci maddəsində" sözləri ilə əvəz edilsin;

4.4. 2.5-ci bəndə "24.8-ci," sözlərindən sonra "24.12-ci (hər iki halda), 24.13-cü," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2021-ci il*

## Bakı şəhərinin Nəsimi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nəsimi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2021-ci il*

## E.B.Bayramovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı əlaqələrin inkişafında xidmətlərinə görə Elman Bayram oğlu Bayramov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2021-ci il*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12, maddə 1424; 2021, № 1, maddə 2; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 286-VIQD nömrəli Qanunu) 120-ci maddəsinə "Azərbaycanın Milli Qəhrəmanlarına" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarına," sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12, maddələr 1439, 1441, 1454, 1455; Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 266-VIQD nömrəli Qanunu) 102-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 102.2.1-ci maddədə "Milli" sözü "Vətən Müharibəsi" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 102.2.1-1-ci maddə əlavə edilsin:

"102.2.1-1. Azərbaycanın Milli Qəhrəmanlarının;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 may 2021-ci il*

## "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 557) 5.3-cü bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2021-ci il*

## Heydər Əliyevin başladığı və İlham Əliyevin yekunlaşdırdığı möhtəşəm layihə

*Əvvəli 1-ci səh.*




2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin açılış mərasimindəki nitqində Prezident İlham Əliyev demişdir: "2002-ci ildə artıq biz "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

Xatırladaq ki, BTC nəhəng kəmərdir. Bu boru xətti Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə qət edir. Kəmərin yerüstü obyektlər sisteminə 2 terminal, 8 nasos stansiyası, 101 siyirtmə məntəqəsi daxildir. BTC-nin baş nasos stansiyası Səngəçal terminalında yerləşir. Azərbaycandakı ikinci nasos stansiyası Yevlax rayonundadır. Kəmərin Gürcüstanda da iki stansiyası var. Qalan dörd stansiya Türkiyə ərazisindədir.

Regionda enerji ixracının başlıca arteriyası hesab olunan bu boru kəməri zəngin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayır. Qapalı Xəzər hövzəsi və bütün dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında ilk birbaşa əlaqəni də məhz BTC yaradıb.

BTC artıq 15 ildir təkcə Azərbaycana deyil, bütün regiona xeyir-bərəkət gətirir. Kəmər Bosfor və Dardanel boğazlarından yan keçməklə həmçinin ekoloji riskləri azaldır. Başlıca şərtlərdən biri də kəmərin təhlükəsizliyidir. Boruları etibarlı şəkildə örtüklənmiş və bütün marşrutu boyu torpaq altında basdırılmış bu kəmər, necə deyərlər, səssiz-səmirsiz, ətraf mühitə ziyan vurmadan və insanlara narahatlıq gətirmədən işini davam etdirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsin"də, 1994-cü il 23 sentyabr tarixli 887 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə, 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də, "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Gənclər siyasəti haqqında" və "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 205-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 133, № 5, maddə 312; 2007, № 8, maddə 754, № 11, maddə 1078; 2008, № 8, maddə 709; 2010, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2012, № 5, maddə 408; 2014, № 2, maddə 86; 2016, № 1, maddə 6; 2017, № 3, maddə 327; 2018, № 1, maddə 8, № 10, maddə 1968; 2019, № 2, maddələr 180, 181) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 333.4-cü maddədə "Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni və" sözləri "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı və ya "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş, eləcə də Azərbaycan Respublikasının "Zəfər" ordeni, "Qarabağ" ordeni, "Şöhrət" ordeni və ya" sözləri ilə əvəz edilsin;

1.2. 349.2-ci maddədə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı və ya Azərbaycan Respublikasının" sözləri "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı və ya "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş, eləcə də Azərbaycan Respublikasının "Zəfər" ordeni, "Qarabağ" ordeni və ya" sözləri ilə, "olunmuş" sözü "edilmiş həqiqi hərbi xidmətdən" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 312, № 6, maddə 415; 2007, № 8, maddə 754; 2008, № 8, maddə 709; 2010, № 4, maddə 274, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 9; 2018, № 1, maddə 9, № 10, maddə 1967) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"nin 192-ci maddəsinin üçüncü hissəsinə "məlumat verir:" sözlərindən sonra "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı (hərbi rütbəsi və soyadı) Vətənin azadlığı uğrundakı döyüşlərdə qəhrəmancasına həlak olmuşdur"," sözləri əlavə edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501; 2015, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab), maddə 2207; 2018, № 12, maddə 2488; 2019, № 2, maddə 180; 2020, № 6, maddə 669, № 7, maddə 827) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"yə 3 saylı Əlavə - "Hərbi qulluqçuların son yaş həddindən artıq həqiqi hərbi xidmətdə saxlanması üçün siyahıların tərtib edilməsi Qaydaları"nın dördüncü hissəsinə "Azərbaycan Respublikasının" sözlərindən sonra "Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın" sözləri əlavə edilsin.

**Maddə 4.** "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 641; 2009, № 2, maddə 46) 3-cü maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. ikinci abzasda "iki dəfə" sözləri "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının," sözləri ilə əvəz edilsin və həmin abzasdan "və onlara bərabər tutulanların" sözləri çıxarılsın;

4.2. üçüncü abzasa "Azərbaycanın Milli Qəhrəmanlarının" sözlərindən əvvəl "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının," sözləri əlavə edilsin və həmin abzasdan "və onlara bərabər tutulanların" və "azı iki" sözləri çıxarılsın.

**Maddə 5.** "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365; 2005, № 4, maddə 278; 2007, № 11, maddə 1072; 2010, № 3, maddə 168; 2012, № 11, maddə 1057; 2013, № 11, maddə 1313; 2015, № 11, maddə 1279; 2017, № 2, maddələr 141, 160; 2018, № 6, maddə 1157, № 11, maddə 2192; 2020, № 6, maddə 674) 2-ci maddəsinin üçüncü hissəsinin "c" bəndində "Sovet İttifaqı Qəhrəmanlarının, Milli Qəhrəmanların" sözləri "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının, Azərbaycanın Milli Qəhrəmanlarının, Sovet İttifaqı Qəhrəmanlarının" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171; 2019, № 4, maddə 582, № 8, maddə 1382, № 11, maddə 1684; 2020, № 6, maddə 670, № 7, maddə 828) 5.9-cu maddəsində "Milli Qəhrəmanlar" sözləri "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanları və Azərbaycanın Milli Qəhrəmanları" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 575) 6.1.7-ci maddəsinə "incəsənət xadimlərinin" sözlərindən sonra ", Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 may 2021-ci il*

# Vətən müharibəsi və müharibədən sonra Azərbaycanın xarici siyasəti mövzusunda diplomatiya həftəsinin açılışı olub











**İyulun 12-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə "44 günlük Vətən müharibəsi və müharibədən sonra Azərbaycanın xarici siyasəti" mövzusunda diplomatiya həftəsinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən diplomatiya könüllülərinin rəhbəri Nigar Eyvazzadə layihənin təqdimatını edərək, bu çərçivədə həyata keçiriləcək fəaliyyət barədə danışıb.

Qeyd edilib ki, diplomatiya həftəsi Azərbaycanda fəaliyyət göstərən könüllü təşkilatlarının və hərəkatlarının nümayəndələrinin iştirakı ilə iyulun 12-dən 26-dək keçiriləcək. İştirakçıların iki həftə ərzində Azərbaycanın Vətən müharibəsi dövründə xarici siyasəti, habelə Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər haqqında ətraflı məlumatlandırılması üçün Xarici İşlər Nazirliyi və digər dövlət qurumlarının yüksəksəviyyəli nümayəndələri, habelə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin rəhbərləri, Vətən müharibəsinin iştirakçıları, onu işıqlandıran xarici jurnalistlər, tanınmış ictimai xadimlər ilə görüşləri keçiriləcək. Bununla yanaşı, layihə çərçivəsində bir sıra mədəni proqramların, ekskursiya və səfərlərin təşkili nəzərdə tutulub.

Mərasimdə ölkə rəhbərliyinə, Azərbaycan gəncliyinə, o cümlədən könüllülər hərəkatına göstərilən diqqət və yüksək dəyərə görə təşəkkür ifadə edilib.

Tədbirdə 44 günlük Vətən müharibəsi dövründə yaşanmış hadisələrin bir hissəsini özündə ehtiva edən videokollaj nümayiş olunub. Salamlama nitqi ilə çıxış edən ADA Universitetinin prorektoru Fariz İsmayılzadə bu ali təhsil ocağının XİN-lə birgə 44 günlük Vətən müharibəsi və ondan sonrakı mərhələdə həyata keçirilən xarici siyasət mövzusunda gənclərin məlumatlandırılması layihəsinin təşkilatçısı qismində çıxış etməkdən məmnunluğunu bildirib. O, Azərbaycanın beynəlxalq müstəvidə layiqincə tanıdılması baxımından gənclərin mühüm rol oynadığını vurğulayıb.

Açılış mərasiminin əsas qonağı, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək, tədbirin bir il əvvəl Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində dövlət sərhədində növbəti təcavüz aktına əl atması tarixinə təsadüf etdiyini vurğulayıb. Azərbaycan Silahlı Qüvvələrinin düşmənin hərbi təxribatlarını layiqincə cavablandırdığı və 44 günlük Vətən müharibəsi nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun qazandığı şanlı Zəfərin ölkəmizin tarixinə qızıl hərflərlə daxil olduğu qeyd edilib. Münaqişənin keçmişdə qaldığını qeyd edən Hikmət Hacıyev Azərbaycanın qarşısında duran əsas vəzifələrdən, xüsusilə də azad olunmuş ərazilərin yenidən qurulması prosesindən, bu ərazilərin minalardan təmizlənməsindən, beləliklə, məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri dönüşünün təmin olunmasından danışıb. Təməlində milli maraqlar dayanan Azərbaycan xarici siyasətinin bundan sonra da bölgədə və dünyada sülh və təhlükəsizliyin, beynəlxalq hüququn təmin edilməsinə yönələcəyi vurğulanıb.

Tədbirin sonunda H.Hacıyev iştirakçıların suallarını cavablandırıb.

# Müdafiə Nazirliyinin rəhbərliyi İkinci Şəhidlər xiyabanını ziyarət edib

**İyulun 12-də Müdafiə Nazirliyinin rəhbərliyi Tovuz döyüşlərinin ildönümü münasibətilə İkinci Şəhidlər xiyabanını ziyarət edib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin edilməsi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb və ruhlarına dualar oxunub.

Sonra 2020-ci ilin iyulunda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu sahəsində Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını alarkən canlarını fəda etmiş şəhidlərimizin, eləcə də burada uyuyan bütün şəhidlərin məzarları ziyarət edilərək üzərilərinə gül dəstələri düzülüb.

Tovuz döyüşlərinin ildönümünə həsr olunan silsilə tədbirlər davam edir.





# Hərbi qulluqçular üçün beynəlxalq humanitar hüquq mövzusunda seminarlar keçirilib



**Bu ilin fəaliyyət planına əsasən, Müdafiə Nazirliyinin dəstəyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) təşkilatçılığı ilə hərbi qulluqçular üçün beynəlxalq humanitar hüquq mövzusunda seminarlar keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, seminarlar zamanı BQXK-nin Azərbaycan nümayəndəliyinin əməkdaşları şəxsi heyət qarşısında müxtəlif mövzularda çıxış edib və onları maraqlandıran sualları cavablandırıblar.

# *ANAMA:* Ötən həftə 113 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib




**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.**

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, iyulun 5-dən 10-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 153, tank əleyhinə 29 mina və 26 partlamamış hərbi sursat aşkarlanıb.

Əməliyyatlar nəticəsində 113 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Türkiyəli psixoloqlar Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan 1800 şəxsə yardım göstəriblər

**Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşlara yardım məqsədilə Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən Türkiyədən dəvət edilmiş peşəkar klinik-psixoloq və psixoterapevtlərin iyulun 12-də mətbuat konfransı keçirilib.**




AZƏRTAC xəbər verir ki, mətbuat konfransında jurnalistlərin suallarını FHN-in Tibbi və psixoloji yardımın təşkili şöbəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Xanım Sofiyeva və Türkiyədən ölkəmizə gələn peşəkar klinik-psixoloq və psixoterapevtlərdən ibarət nümayəndə heyətinin rəhbəri Selçuk Demirtaş cavablandırıb.

Şöbə rəisi Xanım Sofiyeva bildirib ki, bu müddət ərzində ümumilikdə 1800 nəfərə yaxın Vətən müharibəsi iştirakçısı, qazi, şəhid ailəsi üzvü və erməni terrorundan zərər görmüş digər şəxslərə yardım göstərilib: "Bakı şəhəri ilə yanaşı, terrordan ən çox ziyan görmüş Gəncə və Bərdədə, həmçinin respublikanın cənub və şimal bölgələrini əhatə etməklə Lənkəran və Qəbələ şəhərlərində də müharibədən və erməni terrorundan fiziki-mənəvi zərər görmüş vətəndaşlarımızın psixoterapevtik reabilitasiyası həyata keçirilib. Ümumilikdə, ötən müddət ərzində bütün regionlar üzrə FHN-in "112" Qaynar telefon xətti vasitəsilə mütəxəssislərin qəbuluna yazılmış 1800 nəfərə yaxın Vətən müharibəsi iştirakçısı, qazi, şəhid ailəsi üzvü və erməni terrorundan zərər görmüş digər şəxslərə 4 mindən çox psixoterapevtik seanslar təşkil edilməklə müvafiq yardımlar göstərilib".

X.Sofiyeva qeyd edib ki, Türkiyə Respublikasından olan psixoloq mütəxəssislərin iştirakı ilə 2021-ci il iyulun 13-dən başlayaraq Sumqayıt şəhəri, Zülfü Hacıyev küçəsi, 79 ünvanında yerləşən Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasında müharibədən və erməni terrorundan fiziki və mənəvi zərər görmüş vətəndaşlarımızın psixoloji reabilitasiyası işinə başlanılacaq. Ödənişsiz həyata keçirilən seanslarda iştirak etmək üçün FHN-in "112" Qaynar telefon xətti ilə əlaqə saxlamaq lazımdır.

Mətbuat konfransında çıxış edən Selçuq Demirtaşın dediyinə görə, psixoterapevtik reabilitasiyasının həyata keçirildiyi ilk iki ay olduqca ağır keçib: "Müharibədən dərhal sonra müraciət edənlərin əksəriyyətində şiddətli baş ağrıları, yuxusuzluq, gələcəyə ümidsiz yanaşma kimi stres halları müşahidə edilib. Şükürlər olsun ki, psixoterapevtik seanslar uğurla nəticələnib. Reabilitasiyadan keçən bir çox Vətən müharibəsi qazisi psixoloji sağlamlıqlarına qovuşublar. Əksəriyyəti iş həyatına qayıdıb, beziləri isə hətta ailə qurublar. Lakin psixoterapevtik reabilitasiya üçün çox az şəhid ailəsi üzvü müraciət edib".

Məlumata əsasən, bu günədək Gəncədə 225, Bərdədə 245, Lənkəran və Qəbələdə isə müvafiq olaraq 144 və 125 vətəndaş psixoloji yardım üçün qəbula yazılıb. Psixoloji yardımla bağlı müraciət edənlərin 60 faizi müharibə iştirakçıları, 20-25 faizi isə erməni terrorundan zərər görmüş digər şəxslərdir.

Xatırladaq ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən 20 nəfərdən ibarət türkiyəli psixoloqlar heyəti Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşlara yardım məqsədilə cari ilin yanvar ayında dəvət ediliblər.

# *DİN:* Son üç gündə paytaxtda 300-dək şadlıq sarayında yoxlama aparılıb

**Məlum olduğu kimi, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına görə, bu il iyulun 1-dən müəyyən qaydalara əməl olunmaqla toy şənliklərinin keçirilməsinə icazə verilib.**

Lakin aparılan yoxlamalar nəticəsində bəzi şadlıq saraylarında həmin qərardan irəli gələn tələblər pozularaq, toyların təşkili zamanı "icaze.e-gov.az" portalında qeydiyyatın olmaması, icazə verilən saydan artıq qonağın iştirak etməsi, mərasimlərə qatılan bəzi şəxslərin vaksinasiyadan keçmələrini təsdiqləyən müvafiq sənədin olmaması, eləcə də şənliklərin saat 24:00-dan sonra da davam etməsi müəyyənləşdirilib.

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda bildirilib.

Məlumatda qeyd olunub ki, belə halların qarşısının alınması məqsədilə DİN-in əməkdaşları Dövlət Vergi Xidməti və Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin iştirakı ilə Bakıda, eləcə də respublikanın digər şəhər və rayonlarında fəaliyyət göstərən şadlıq saraylarında müntəzəm olaraq yoxlamalar həyata keçirirlər. Son üç gün ərzində paytaxtda yerləşən 300-ə yaxın şadlıq sarayında analoji yoxlamalar aparılıb. Nəticədə 12 şadlıq sarayında ("Gülüstan", "Golden Baku", "Billur", "Kral", "Aura", "SS Hall", "Ərzurum", "Neon Palace", "Kleopatra", "Sevən ürəklər", "Xan bağı", "Şuşa") xüsusi karantin rejimindən irəli gələn qaydaların pozulması halları müəyyən olunduğundan, hər bir fakt üzrə Cinayət Məcəlləsinin 139-1-ci maddəsi ilə cinayət işləri başlanıb, təqsirkar şəxslər saxlanılıblar.

Dörd şadlıq sarayında və bir restoranda isə ("Yeganə", "Amor", "İdeal", "Retro", "Səda") aşkar edilmiş qayda pozuntularına görə İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə protokollar tərtib edilərək obyekt sahibləri barəsində inzibati həbs və ya cərimə tətbiq edilib.

Analoji tədbirlər ərazi polis orqanları tərəfindən müvafiq dövlət qurumları ilə birgə respublikanın bütün şəhər və rayonlarında da həyata keçirilir. Belə yoxlamalar nəticəsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə iki şadlıq sarayının sahibi barəsində cinayət işi başlanıb. Həmçinin 12 obyekt sahibi şübhəli şəxs qismində saxlanılıb, 21 obyekt sahibi inzibati cərimə edilib, 10 fakt üzrə istintaq araşdırması aparılır, vaksinasiya olunmasını təsdiq edən müvafiq sənədi olmayan 423 nəfər isə şadlıq saraylarına buraxılmayıb.

Bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyi toy etməyi planlaşdıran vətəndaşlarımızdan, eləcə də toy şənliklərinin keçiriləcəyi şadlıq sarayı və restoran sahiblərindən təşkil edəcəkləri şənlik mərasimləri zamanı koronavirus pandemiyası ilə əlaqədar tətbiq edilən bütün qərarlara, o cümlədən dəvət edilən qonaqların say məhdudiyyətinə, onların vaksinasiya olunmalarını təsdiq edən müvafiq sənədə malik olmaları tələbinə ciddi riayət və nəzarət etməyi bir daha xahiş edir. Əks təqdirdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinə nəzarəti həyata keçirən polis və digər aidiyyəti qurumlar qanunvericiliyin tələblərinə uyğun olaraq təqsirkar şəxslər barəsində cəza tədbirləri görmək məcburiyyətində qalacaqlar.

# "Yüksəliş" müsabiqəsinin finalı yekunlaşıb

**"Bakı Ekspo Mərkəzi"ndə keçirilən "Yüksəliş" müsabiqəsinin finalı başa çatıb.**

AZƏRTAC xəbər verir ki, final mərhələsinin ikinci günündə müsabiqənin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Birinci vitse-prezidentin köməkçisi Emin Hüseynov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev, təhsil naziri Emin Əmrullayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı naziri İnam Kərimov, mədəniyyət naziri Anar Kərimov, Ombudsman Səbinə Əliyeva, "Yüksəliş" İctimai Birliyinin sədri, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, gənclər və idman nazirinin müavini İntiqam Babayev, DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, "BP" şirkətinin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda xarici əlaqələr və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev iştirak ediblər.

"Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev çıxış edərək qonaqları salamlayıb və iştirakçılara uğurlar arzulayıb.

İşçi qrupunun rəhbəri bildirib ki, Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı Sərəncamla təsis olunan "Yüksəliş" müsabiqəsi peşəkar kadrların aşkara çıxarılması, onların stimullaşdırılması, ölkəmizin güclü kadr ehtiyatı bankının formalaşdırılması məqsədilə Azərbaycanda ilk dəfə belə mütəşəkkil formada və fərqli imtahan formatında keçirilən müsabiqədir. Fərhad Hacıyev müsabiqənin keçirilməsinin "Yüksəliş" İctimai Birliyinin İşçi Qrupu komandasına həvalə olunmasına, göstərilən etimada görə ölkə başçısına təşəkkürünü bildirib.

Daha sonra iştirakçılar Təşkilat komitəsinin üzvləri və idarəçi rəhbərlərin müşahidəsi ilə "Qarabağda ağıllı şəhər" adlı keys üzrə tapşırıqları yerinə yetiriblər. İdarəçi rəhbərlərin suallarına cavab verən iştirakçılar keys üzrə təqdimatdan sonra İdarəçi rəhbərlər tərəfindən qiymətləndirilib. Belə ki, hər masaya təyin edilmiş mentor komandada öz səriştəsi ilə seçilən bir finalçıya qiymətləndirmə balı təqdim edib.

Qeyd edək ki, müsabiqənin yarımfinal və final mərhələləri "qiymətləndirmə konfransı" (assessment conference) formatında keçirilib. Sözügedən mərhələlərdə strateji düşünmək bacarığı, iş icrasının idarə edilməsi, nəticələrə yönəlmək, komandada işləmək, kommunikasiya, dəyişikliklərin idarə edilməsi, büdcənin idarə edilməsi bacarığı, sosial məsuliyyət, innovativliklərin tətbiqi səriştələri əsasında ekspertlər tərəfindən qiymətləndirmə aparılıb.

Finalda müsabiqənin əvvəlki mərhələlərini uğurla başa vuran 112 namizəd qalibiyyət uğrunda mübarizə aparıb. Seçiləcək 20 nəfər qalibin adı kadr ehtiyatı bankına daxil edilməklə yanaşı, onlar idarəçi rəhbərlər tərəfindən 1 illik fərdi inkişaf planı (https://yukselish.az/mentors.html) və hər biri 20 min AZN məbləğində özünüinkişaf qrantı əldə edəcək.

"Yüksəliş" müsabiqəsi 21-51 yaş aralığında, 2 illik idarəçilik təcrübəsi olan, ali təhsilli Azərbaycan Respublikasının vətəndaşlarını əhatə edir. Müsabiqə 5 mərhələdən - qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir. Müsabiqədə, ümumilikdə, 11.760 nəfər qeydiyyatdan keçib. Onlardan 9.775 nəfəri müsabiqəyə qəbul edilib.

# Azərbaycan-Niderland parlamentlərarası əməkdaşlığının perspektivləri müzakirə edilib

İyulun 12-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Azərbaycan-Niderland parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar Quliyev Niderland Krallığının ölkəmizdəki səfiri Pauline Eizema ilə görüşüblər.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Səməd Seyidov Niderland səfirinin bu günlərdə diplomatik korpusun nümayəndələri ilə Füzuli və Şuşaya səfərini yüksək qiymətləndirib. Komitə sədri bu ilin iyunun 18-də Milli Məclisdə Niderland parlamenti tərəfindən Azərbaycana qarşı qərəzli və birtərəfli qaydada qəbul edilən qətnamələrin kontekstində Azərbaycan-Niderland ikitərəfli münasibətlərinin müzakirə olunması barədə məlumat verib.

Azərbaycan-Niderland parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar Quliyev isə diqqətə çatdırıb ki, Niderland parlamenti Milli Məclisin bu məsələ ilə bağlı müraciətlərinə, dialoq təkliflərinə heç bir reaksiya verməyib və hər hansı bir fikir mübadiləsindən yayınıb.

Pauline Eizema Niderland parlamentinin Milli Məclisin məktub və müraciətlərinə cavab verməməsini və birtərəfli qərarların qəbulunu Niderland cəmiyyətinin erməni diasporunun məlumat selinə məruz qalması ilə əlaqələndirib. O, səfir kimi bölgədə gedən prosesləri hökumətinə olduğu kimi çatdırdığını, bu məsələlərdə parlamentdən fərqli olaraq Niderland hökumətinin balanslaşdırılmış yanaşma sərgilədiyini qeyd edib. Sonra görüşdə Azərbaycanla Niderland arasında parlamentlərarası əməkdaşlığın gələcəyi və digər məsələlər müzakirə edilib.

# Türkiyənin Loğman Həkim Universitetinin nümayəndə heyəti Milli Məclisdə olub

İyulun 12-də Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov Azərbaycanda işgüzar səfərdə olan Türkiyənin Loğman Həkim Universitetinin nümayəndə heyəti ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Rəşad Mahmudov Azərbaycanla Türkiyə arasında gündən-günə inkişaf etməkdə olan çoxşaxəli əlaqələrdən danışıb. Səhiyyə komitəsinin sədr müavini son illərdə ölkəmizdə səhiyyənin inkişafı istiqamətində aparılan islahatlar, görülən işlər, əldə olunmuş nailiyyətlər, komitənin fəaliyyəti barədə məlumat verib.

Sonra nümayəndə heyətinin üzvləri Azərbaycana ilk dəfə gəldiklərini, səfərin məqsədinin iki ölkə arasında tibb və səhiyyə sahələrində əməkdaşlığın daha da genişləndirilməsi olduğunu vurğulayıblar.

Görüş zamanı nümayəndə heyətinin rəhbəri, Loğman Həkim Universitetinin rektoru professor Bülənt Gümüşəl, Universitetin İdarə Heyətinin sədri Məhmət Altuğ, rektorun müşaviri professor Ayşə Karaduman, universitetin Səhiyyə elmləri fakültəsinin və tibb bacısı şöbəsinin müdiri professor Fatma Öz, Əczaçılıq fakültəsinin dekanı professor Belma Gümüşel, Azərbaycan Tibb Universitetinin prorektoru Orxan İsayev çıxış edərək, tibb sahəsində birgə inkişaf layihələri çərçivəsində gələcək fəaliyyətin istiqamətləri barədə fikirlərini bölüşüblər.

# Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının növbəti iclası

İyulun 12-də Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının növbəti iclası keçirilib



Yeni Azərbaycan Partiyasından AZƏRTAC-a bildiriblər ki, YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın əlamətdar hadisə ərəfəsində keçirildiyini bildirib. 1969-cu il 14 iyulun tariximizə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi gün kimi daxil olduğunu vurğulayan deputat qeyd edib: "Ulu Öndərin hakimiyyətə gəlişi respublikamızın intibah və tərəqqisinin başlanğıcı kimi dəyərləndirilir. Çünki o dövrə qədər Azərbaycan keçmiş ittifaq arasında ən geridə qalan respublikalar sırasında idi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə qısa müddət ərzində Azərbaycan sosial-iqtisadi inkişaf, milli kadrların irəli çəkilməsi, gənclərin keçmiş ittifaqın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində mühüm addımlar atıldı. Ən önəmli məqamlardan biri də budur ki, Ümummilli Liderimizin hələ sovet dövründə həyata keçirdiyi siyasət milli oyanış prosesində də vacib rol oynadı ki, bu da müstəqilliyimizə gedən yolun təməllərindən biri kimi qiymətləndirilir".

S.Hüseynova diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ikinci hakimiyyəti dövrü isə müstəqil, hüquqi-demokratik dövlət quruculuğu kimi səciyyələndirilir. 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan böyük dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərini, inkişaf strategiyasını müəyyənləşdirdi, müstəqilliyimizin dönməzliyini təmin etdi. 2003-cü ildən isə Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirməsi nəticəsində Azərbaycan daha da inkişaf edərək dünyada güclü və qüdrətli dövlətə çevrilib. Məhz bunun nəticəsidir ki, ötən il 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız erməni işğalından azad olundu, Azərbaycanın ərazi bütövlüyü təmin edildi. Vətən müharibəsində qazanılan parlaq Qələbə yeni reallıqlar yaradıb. Bu reallıqlar siyasi sahəni də əhatə edir. Bu ilin mart ayında Yeni Azərbaycan Partiyasının VII Qurultayının keçirilməsi və qurultayda mühüm qərarların qəbul edilməsi, partiyanın Sədri, Prezident İlham Əliyevin partiya üzvləri qarşısında qoyduğu yeni vəzifələr bütün bunları bir daha təsdiqləyir.

Sonra iclasın gündəliyi barədə məlumat verən S.Hüseynova deyib ki, gündəliyə Təftiş komissiyasının reqlamentinin təsdiq olunması və komissiyanın iş planı barədə məsələlər daxildir. Qeyd olunub ki, Təftiş komissiyasının ilk iclasında reqlamentin hazırlanması barədə qərar qəbul olunmuşdu. Artıq bu sənəd hazırdır. 5 bölmə və 65 maddədən ibarət olan reqlamentdə Təftiş komissiyasının fəaliyyət prinsipləri, qaydaları və digər məsələlər öz əksini tapır. YAP Təftiş Komissiyasının sədr müavini, Milli Məclisin deputatı Nizami Səfərov sənədin üzərində zəruri işlərin aparıldığını, bu istiqamətdə beynəlxalq təcrübənin öyrənildiyini diqqətə çatdırıb.

Müzakirələr zamanı YAP Təftiş Komissiyasının üzvləri Sadiq Qurbanov, Cavanşir Paşazadə, Musa Musayev, Vüqar İskəndərov, Həsən Həsənov, Aydın Hüseynov, Məlahət İbrahimqızı və Elman Nəsirov çıxış edərək sənədlə bağlı rəy və təkliflərini bildiriblər. Müzakirələrin sonunda YAP Təftiş Komissiyasının reqlamenti qəbul olunub.

İclasda daha sonra YAP Təftiş Komissiyasının iş planı ilə bağlı məsələyə baxılıb və iş planının hazırlanması üçün işçi qrupun yaradılması haqqında qərar qəbul edilib.

# Avropa İttifaqı ilə sosial sahədə icra olunan birgə layihələrə dair fikir mübadiləsi aparılıb

Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında bir çox sahələrdə olduğu kimi, sosial sahədə də birgə layihələr əsasında fəal əməkdaşlıq təcrübəsi formalaşıb.



Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri kimi ölkəmizdə fəaliyyət müddəti başa çatan Kestutis Yankauskas ilə onlayn formatında keçirilən vida görüşündə vurğulayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanın Aİ ilə sıx və davamlı tərəfdaşlığa xüsusi önəm verdiyini vurğulayan nazir Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, əmək, məşğulluq, sosial müdafiə sahələrində genişmiqyaslı islahatların aparıldığını qeyd edərək həmin islahatlar prosesində Aİ ilə fəal əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırıb. Aİ-nin TACIS, Tvinninq layihələrinin, eləcə də Avropa Təlim Fondu ilə əməkdaşlığın sosial sahədə islahatlarda, sosial müdafiə sisteminin təkmilləşdirilməsi işlərində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

K.Yankauskasın ölkəmizdəki fəaliyyəti dövründə Azərbaycan ilə Aİ arasında münasibətlərin uğurla inkişaf etdiyini deyən S.Babayev bu sahədə verdiyi töhfəyə görə ona təşəkkür edib.

K.Yankauskas Azərbaycandakı fəaliyyəti dövründə ölkəmizlə, xalqımızla bağlı xoş təəssüratlara malik olduğunu vurğulayıb. O, sosial sahədə əməkdaşlığın inkişafının məmnunluq doğurduğunu bildirib.

Görüşdə Avropa İttifaqı ilə sosial sahədə icra olunan birgə layihələrə dair fikir mübadiləsi aparılıb.

# RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə təşkilatın Regionlararası forumu keçirilib







Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə Sankt-Peterburqda bu təşkilatın Regionlararası forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Ümummilli Lider Heydər Əliyevin Sankt-Peterburqdakı barelyefinin ziyarəti ilə başlanıb. İştirakçılar Gənclər siyasəti və ictimai təşkilatlarla qarşılıqlı əlaqə üzrə Komitə sədrinin müavini İvan Yesipovla birgə "Böyük Vətən müharibəsi qəhrəmanları" və "Müharibə övladları" abidələrinin önünə güllər düzüblər.

Forumun rəsmi açılışı "Vahid Rusiyanın Gənc Qvardiyası" Sankt-Peterburq şəhər şöbəsinin rəhbəri Aleksandr Malikovun, Sankt-Peterburq Millətlər Evinin direktoru Valeri Nikolayevin, RAGB-nin Sankt-Peterburq üzrə regional şöbəsinin rəhbəri Elman Manafovun və RAGB-nin məsul katibi Ceyhun Hüseynovun çıxışları ilə başlayıb.

C.Hüseynov çıxışında RAGB-nin sədri Leyla Əliyevanın sağlam həyat tərzi və ətraf mühitə qayğı məsələlərinə xüsusi diqqət göstərməsini vurğulayıb. Forum iştirakçıları gənclərin sosial cəhətdən həssas kateqoriyası ilə iş barədə məlumatlandırılıb. Məlum olduğu kimi, Azərbaycanda 2021-ci il "Nizami Gəncəvi ili" elan edilib. Bununla əlaqədar RAGB-nin Regional forumunun iştirakçıları şair və filosof Nizami Gəncəvinin Sankt-Peterburqdakı abidəsini ziyarət ediblər. Forum Sankt-Peterburq şəhərində yerləşən Aviatorlar parkında Dostluq xiyabanının salınması ilə davam edib. Təşkilatın artıq ənənəyə çevrilən ağacəkmə ekoloji aksiyasında "Vahid Rusiyanın Gənc Qvardiyası"nın könüllüləri də iştirak ediblər. Tədbirin sonunda iştirakçılar bir-birilərinə xatirə hədiyyələri veriblər. Regionlararası forumların keçirilməsində məqsəd RAGB-nin regional şöbələrinin daha səmərəli qarşılıqlı əlaqələri üçün platformanın yaradılmasıdır. Forumlarda RAGB-nin fəal iştirak edə və regional şöbələri dəstəkləyə biləcəyi ideya və layihələr geniş müzakirə olunur.

Xatırladaq ki, Sankt-Peterburqda keçirilən forum RAGB-nin 2021-ci ildə təşkil olunun sayca dördüncü forumudur.

**Müəllifi İlham Əliyevdir**

# Səyyar xidmət - vaxta qənaət, hər kəsə diqqət

## Cənub bölgəsinə səfərə çıxan "ASAN qatar" iyul-avqust aylarında Lənkəran və Astarada vətəndaşların xidmətində olacaq

*Əvvəli 1-ci səh.*



2016-cı ilin dekabr ayının 28-də İlham Əliyevin açılışını etdiyi səyyar qatar 2017-ci il fevralın 1-dən fəaliyyətə başlayıb.

Xatırladaq ki, səyyar xidmət göstərmək məqsədilə ilk olaraq avtobuslar ayrılıb. 2013-cü ilin iyun ayından etibarən iki istiqamət (cənub və şimal-qərb) üzrə hərəkətə keçib. 2013-cü ildə 2 avtobusla fəaliyyətə başlayan xidmət daha sonra Prezidentin tapşırığına əsasən genişləndirilib və avtobusların sayı 10-a çatdırılıb.

Ümumilikdə səyyar xidmətə (avtobus, qatar, kiçik səyyar qruplar, sifarişli əsaslarla həyata keçirilən xidmət və sosial aksiyalar) indiyədək 2 milyon 400 minə yaxın müraciət qeydə alınıb.

### Gözləmə və xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla, 3 vaqon vətəndaş məmnunluğunu təmin edir

"ASAN qatar"dayıq. Sanki "ASAN xidmət" mərkəzlərinin kiçildilmiş formasıdır. Qatar gözləmə zalı, xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla, 3 vaqondan ibarətdir. Səyyar qatar ölkəmizdə geniş dəmir yolu şəbəkəsi, mövcud infrastruktur, kommunikasiya xətlərindən və ən müasir texnologiyalardan istifadə edərək yerlərdə vətəndaşların xidmətindədir.

Belə ki, "ASAN qatar" növbəli qaydada ölkədə bütün istiqamətlərdə hərəkət edərək əvvəlcədən təyin olunan yerdə dayanır və fəaliyyətə başlayır.

Bu qatarda - tərcümə xidməti, tibb xidməti, bank xidməti (dövlət rüsumlarının və xidmət haqlarının qəbulu), daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına dair dövlət reyestrindən arayışların verilməsi, mənzillər üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların verilməsi, sürücülük vəsiqəsinin dəyişdirilməsi, yaşayış evləri (fərdi) üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların (ilkin qeydiyyat istisna olmaqla) verilməsi, əmək pensiyalarının təyin edilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, notariat fəaliyyəti xidməti həyata keçirilir.










### Lənkərana 20-ci səfər, innovativ üsullarla təqdim olunan xidmətlər

"ASAN qatar"da ümumilikdə 21 nəfər əməkdaş vətəndaşlara xidmət göstərir. Vaqona daxil olan şəxs məlumat mərkəzinə yaxınlaşıb müraciət edir və könüllülər tərəfindən əməkdaşlara istiqamətləndirilirlər.

İlk olaraq qatarın kandarında vətəndaş axınının idarə olunması ilə məşğul olan könüllülərlə söhbətləşirik. Nurlan Cəfərzadə və Rüqəyya Nəsirli gülərüzlə qatara daxil olan insanları qarşılayırlar. İlk olaraq tibbi maskadan istifadənin zəruri olduğunu bildirir və hər kəsə istiqamət verirlər.










Sonra məlumat mərkəzinə yaxınlaşırıq. Vətəndaşların müraciətinə 2 əməkdaş baxır. Burada çalışan Namiq Mahmudov deyir ki, iyul ayının 1-dən vətəndaşlara xidmət göstərirlər. Sakinlər daha çox şəxsiyyət vəsiqəsinin, ümumvətəndaşlıq pasportunun, sürücülük vəsiqəsinin dəyişdirilməsi, mənzillər üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması məsələləri ilə bağlı müraciətlər edirlər.

Müraciətlər baxıldıqdan sonra aidiyyəti üzrə növbə götürülür və vətəndaşlar gözləmə zalında əyləşirlər. Növbə çatdıqda könüllülər vətəndaşı digər vaqonda xidmət göstərən masalara qədər müşayiət edirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyir ki, Səyyar "ASAN xidmət"in həyata keçirilməsində əsas məqsəd dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmininə və vətəndaş məmnunluğuna nail olunmasıdır.

Elnur Niftəliyevin sözlərinə görə, 2017-ci ildə fəaliyyətə başlayan səyyar qatar artıq 20-ci dəfədir ki, Lənkəran rayonuna səfər edir. Ümumilikdə bugünədək Lənkəranda səyyar xidmət 19 dəfə gerçəkləşib. 16 dəfə Səyyar "ASAN xidmət" avtobusları vasitəsilə 76 minə yaxın, 3 dəfə isə "ASAN qatar" vasitəsilə 14 minə yaxın müraciətə baxılıb.

Səyyar şəkildə göstərilən xidmətlər Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim olunur.

2013-cü ildən həyata keçirilən səyyar "ASAN xidmət" vasitəsilə ümumilikdə 2 milyon 400 minə yaxın, 2021-ci il ərzində isə 103 minə yaxın vətəndaş müraciətinə baxılıb.

### İstənilən sənədi asanlıqla almaq imkanı var

Xidmətə ən çox müraciət edilən məsələlər ümumvətəndaşlıq pasportu, şəxsiyyət vəsiqəsinin alınması, notariat sənədləri və sürücülük vəsiqəsinin dəyişdirilməsi xidmətləri ilə bağlıdır.

Burada rastlaşdığımız rayon sakini, 64 yaşlı Səfail Nurullaoğlu ümumvətəndaşlıq pasportunun vaxtı keçdiyi üçün xidmətə müraciət edib. Ağsaqqal deyir ki, ayın əvvəlində "ASAN qatar"ın Lənkəranda olması barədə məlumat alıb. Amma ilk günlər gəlmək mümkün olmayıb: "Rayon yeridir, hər kəsin işi-gücü olur. Mən də imkanlaşdırıb bu gün gəldim. Çox rahat iş qurulub. Sənədlərimi təqdim etdim, dövlət rüsumunu ödədim və 10 günə gəlib pasportumu götürəcəm. Əla xidmətdir. Sağ olsun dövlətimiz, Prezidentimiz ki, vətəndaşlar üçün belə rahat, əlçatan xidmət yaradıb".

Xatirə Babayeva isə mənzillər üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması məsələləri xidmətinə müraciət edib. O, yaşadıqları mənzili öz adına keçirmək üçün sənədlərini təqdim edib: "Cəmi 40 dəqiqə çəkdi. Sənədlərimi təqdim etdim və ailə üzvlərimiz də razılıqlarını bildirmək üçün imza atdılar, vəssalam. Belə gözəl xidmət heç bir yerdə yoxdur".

Nurcan Nəqizadə yeni şəxsiyyət vəsiqəsi almaq üçün gəlib. Gənc deyir ki, əvvəllər hansısa sənədi almaq üçün Masallı "ASAN xidmət"ə müraciət edirdilər. İndi isə səyyar xidmət vasitəsilə istənilən sənədi ala bilirlər. Bu da hər kəsi məmnun edir. Çünki həm vaxta qənaət edilir, həm də artıq xərc çıxmır.

Diqqətimizi çəkən bir məqam isə "ASAN qatar"a təşrif buyuran körpə uşaqlı ailə olur. Tahirovlar ailəsinin üzvləri yenicə doğulmuş bir aylıq Jasmin üçün şəxsiyyət vəsiqəsi almağa gəliblər. Atası Şadiman Tahirov deyir ki, doğum haqqında şəhadətnaməni alıblar, indi isə şəxsiyyət vəsiqəsi üçün müraciət edirlər: "Həm sürücülük vəsiqəmi dəyişmək, həm də qızıma yeni şəxsiyyət vəsiqəsi almaq üçün gəlmişik. Çox əla xidmət göstərilir. Əvvəllər uşaqlarımızın doğum haqqında şəhadətnamələrini almaq üçün saatlarla gözləməli olurduq. İndi hər şey asanlaşıb. Rahat şəkildə nə istəyirsənsə, hansı sənədi düzəltmək fikirin varsa, gəlib asanlıqla həll edirsən. Bizə çox hörmətlə yanaşırlar. Körpə uşaqla gələnlərə növbədənkənar xidmət göstərilir. Qan analizini də burda verdik. Qatarda hər cür xidmət yaradılıb. Dövlətimizə, Prezidentimiz İlham Əliyevə təşəkkür edirik ki, rayonlarda yaşayan əhalinin işinin asanlaşması üçün mütəmadi olaraq qərarlar verir, yeni xidmətlər yaradır. "ASAN qatar" da onlardan biridir. Hamıya eyni münasibət, eyni diqqət göstərilir, ayrı-seçkilik edilmir".

Qatardan bayıra çıxıb vətəndaşların təəssüratlarını öyrənmək istəyirik. Hava isti olduğu üçün bayırda çox adam yoxdur. Ancaq növbəsi hələ çatmadığı üçün söhbət edən iki ağsaqqalın dialoquna qulaq müsafirliyi edirik:

- Əvvəllər bəyəm belə şeylər var idi? Vallah yox idi. İdarə-müəssisələrin qapılarında qalırdıq. Hərdən dava-dalaş düşürdü, rüşvət alan kim, verən kim idi...

- Düz deyirsən, indi zaman dəyişib. Çox şeylər düzəlib. Hardan bilərdik ki, bir gün Lənkərana qatar gələcək, içində də möcüzə... Gəl qatara min, dərdini söylə, istədiyin sənədi al, pulunu banka ödə, çıx get. Gör, Prezident nələr yaradır. Vallah istəyir ki, camaat narazı olmasın, kimisə incitməsinlər.

### Səyyar qatar- 16 rayona 48 səfər

Beləliklə, iyulun 1-dən Lənkərana gələn "ASAN qatar" bu ayın 30-dək, yəni otuz gün müddətində vətəndaşların xidmətində olacaq. "ASAN qatar"ın növbəti dayanacağı isə Astara rayonu olacaq.

Elnur Niftəliyevin sözlərinə görə, avqustun 3-dən 28-dək respublikamızın cənub bölgəsində olacaq səyyar qatar 25 gün müddətində vətəndaşlara xidmət göstərəcək. Bu il Astara rayonundan xidmətə başlayan səyyar qatarın son duracağı Füzuli rayonu olacaq. Ümumilikdə bu il "ASAN qatar" ölkənin 5 rayonunda əhaliyə operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında məsuliyyətlə xidmət edəcək.

Qeyd edək ki, səyyar qatar bu günədək ümumilikdə 16 rayona 48 dəfə səfər edib.

Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin səyyar xidmətləri, xüsusən də "ASAN qatar"da yaradılan şərait bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin vətəndaşlara daim diqqət və qayğı göstərilməsi ilə bağlı tapşırığı, habelə bir sıra tövsiyələri effektiv üsullarla yerinə yetirilir. Milli brendimiz olan "ASAN xidmət" fəaliyyətini getdikcə daha da şaxələndirir. Elnur Niftəliyevlə söhbətimiz əsnasında bəlli oldu ki, artıq Lənkəranda da yeni "ASAN xidmət" mərkəzi inşa olunmaqdadır. Tezliklə cənub bölgəsində Masallıdan sonra Lənkəranda belə mərkəz açılacaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

---

**Ciddi siqnal**

# Cəlilabadda taxıl istehsalı niyə azalıb

## Keyfiyyətsiz toxum və əkinçilərə edilməli olan yardımların gecikdirilməsi "Azərbaycanın Ukraynası"nda məhsuldarlığı aşağı salıb



*Əvvəli 1-ci səh.*

Yetişdirdiyi məhsulun bir hissəsini ailəsi üçün ruzi götürür, qalanını isə satıb dərdinə-sərinə xərcləyir. Amma heç vaxt belə bir vəziyyətlə qarşılaşmadığını söyləyir.

### Bəs, bunun səbəbi nədir?

Ə.Abbasov deyir ki, "Moran Aqro" MMC-dən kiloqramı 80 qəpiyə aldığı toxum, demək olar ki, çıxış verməyib. Payız, qış dolanıb, yaz gəlib, yay olub, lakin tarlada nə taxıl cücərib, nə də məhsul yetişib! Biçin zamanı əkdiyi taxıl sahəsində məhsul olmadığını görən Ə.Abbasov texnikanı işə salaraq oradakı otu mal-qara üçün qaba yem kütləsi kimi tədarük edib.

Günəşli kəndinin digər sakini - mülkiyyətçi Ağasahib Ağayev də aldığı toxumun keyfiyyətindən narazıdır. Bildirir ki, hər il əkdiyi sahədən 6-7 ton buğda götürdüyü halda, bu mövsüm vur-tut 1,5 ton məhsul hasilə gətirə bilmişdir. Ağasahib də məhsulun az olmasını toxumla əlaqələndirir: "Vallah, mən kəndçi babayam, eşitdim ki, hansısa şirkətin bazarın yanındakı dükanında buğda toxumu satırlar. Bir çoxları kimi, mən də fermer kartımda olan vəsaitlə gedib o toxumdan aldım. Axırı da belə oldu".

Ə.Abbasov və A.Ağayevlə birlikdə mülkiyyətçilərdən Aydın Əzimov, Rafiq Əliyev, eləcə də başqaları bu məsələ ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyinə, rayon məhkəməsinə, yerli icra orqanlarına müraciət etsələr də, heç bir nəticəsi olmamışdır.

Yeri gəlmişkən qeyd edək ki, Cəlilabad rayonunda buğda toxumu yetişdirən 7 təsərrüfat var. Salyan Regional Mərkəzi Toxum Analizləri şöbəsinin aqronomu Şakir Babayev məsələyə münasibətini bildirərkən demişdir ki, onlar şirkətlərin xətti ilə gətirilən toxumların keyfiyyətinə cavabdeh deyillər: "Cavabdeh olduğumuz və təsərrüfatlarımızın istehsal edib fermerlərə satdıqları məhsulun keyfiyyətindən isə narazı olan yoxdur".

Mütəxəssis Ş.Babayevin sözünü qəribçiliyə salmaq istəmirik. Ancaq fermerlərin torpağa böyük ümidlə səpdikləri toxum üçün kimsə cavabdeh olmalıdır. Biz bilən, belə qurum da var, lakin o, öhdəsinə düşən işi görmür, yəni rayonlara gətirilən toxumların keyfiyyətinə nəzarət etmir, baxmayaraq ki, məhsuldarlıq üçün toxumun mühüm şərt olduğunu bilməmiş deyillər. Atalar əbəs yerə deməyiblər ki, nə əkərsən, onu da biçərsən!

Taxılçılığın inkişafı məqsədilə ölkədə lazım olan bütün tədbirlər görülmüşdür. O cümlədən, torpaq mülkiyyətçilərinə, fermerlərə subsidiyaların, güzəştli qaydada gübrələrin, herbisidlərin və digər dərmanların, lazımi preparatların verilməsi haqqında qərarlar qəbul edilmişdir. Amma nə fayda? Həmin qərarlar bəzən vaxtında icra edilmir və bu səbəbdən bitkilərə də vaxtında aqrotexniki qulluq göstərmək mümkün olmur. Mütəxəssislərin rəyinə görə, taxıl əkini sahələrində yemləmə, yəni azot və karbamid gübrələrinin verilməsi mart ayında başa çatdırılmalıdır. Lakin bunun üçün dövlət tərəfindən ayrılmış vəsaitin vaxtında fermerlərin hesabına köçürülməməsi ucbatından həmin iş nəinki günlərlə, hətta aylarla gecikdirilir, alaq otlarına qarşı mübarizə üçün herbisidlər də həmçinin. Sonradan verilən yardımın isə daldan atılan daş kimi faydası olmur.

Düzdür, mülkiyyətçilər arasında zirək olanları rayondakı dükanlardan nisyə yolla gübrələr ala bilirlər. Amma hamı bunu bacarmır axı... Qeyd edək ki, cari ilin əvvəlində Cəlilabad rayonu üzrə 21 min 452 taxılçı fermer əkin apardıqlarını bəyan etmişdir. Amma onlardan 15 min 452 nəfəri subsidiyanı vaxtında ala bilməmişdir. 7 minə yaxın fermer isə, ümumiyyətlə, subsidiyadan məhrumdur. Səbəbi əkib-becərdikləri torpaq sahələri haqqında hüquqi sənədin - aktın bu günə kimi onlara verilməməsidir.

Göründüyü kimi, bir vaxtlar "Azərbaycanın Ukraynası" olmuş Cəlilabadda taxıl istehsalının aşağı düşməsinin əsas səbəbi əkinçilərin bu sahəyə maraqlarının azalması yox, onlardan asılı olmayan problemlərin vaxtında həll edilməməsidir. Nəzərə alsaq ki, həmin problemlərin fəsadlarından az və ya çox dərəcədə digər rayonların taxılçıları da əziyyət çəkirlər, onda cavabdeh qurumlar təsirli tədbirlər görməlidirlər. Ən azından gələn mövsüm bir daha belə hallarla qarşılaşmamaq üçün.

***Seyran CAVADOV, "Azərbaycan"***

---

# Azərbaycan vətəndaşlarının xarici ölkələrdə qanunsuz "siyasi sığınacaq" almalarını təşkil etməkdə təqsirləndirilən şəxslərlə bağlı cinayət işi başlanıb

Azərbaycan Respublikasının ərazisini tərk edən vətəndaşların xarici ölkələrdə qanunsuz "siyasi sığınacaq" almalarının təşkili faktları ilə əlaqədar Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, istintaqla "No Border Travel Agency" MMC-nin rəhbəri Ramin Hacılı, "Gəncliyin Elmi-Mədəni İnkişafı" İctimai Birliyinin sədri Sərdar İsgəndərov, "Yes Travel" MMC-nin vəzifəli şəxsləri Sərxan Abdullayev, Üzeyir Bağırlı, "HMH Baku Travel" MMC-nin rəhbəri Nərminə Dadaşova, Zakir Əmirov, Əziz Səfərəliyev, Akif Əsədovun külli miqdarda qazanc əldə etmək məqsədilə ABŞ, Kanada və Avropa ölkələrinə səfər etmələri üçün Azərbaycan Respublikasının vətəndaşlarına viza alınması və səfər etdikləri ölkələrdə mühacir statusu alaraq yaşaya bilmələri üçün iş yerindən arayış, bank hesabından çıxarış, daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənədlər, hüquq mühafizə orqanlarına çağırış məktubu, guya xəsarət almalarına dair tibbi arayış və digər hüquq verən rəsmi sənədləri saxtalaşdırıb satmaqla onlara müraciət etmiş şəxslərin qanunsuz miqrasiyalarını təşkil etdikləri müəyyənləşdirilib.

Bununla bağlı əvvəllər eyni xarakterli əməllərə görə dəfələrlə məhkum olunmuş Ramin Hacılı, eləcə də yuxarıda adları çəkilən digər şəxslər Cinayət Məcəlləsinin 178.3.1-ci (mütəşəkkil dəstə tərkibində dələduzluq) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə, barələrində müvafiq olaraq həbs və başqa yerə getməmək haqqında iltizam qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə istintaq davam edir.

---

# Mülki şəxsin Füzuli rayonunda kaset bombasının partlamamış bombacığına toxunaraq xəsarət alması ilə bağlı cinayət işi başlanıb

Füzuli Rayon Prokurorluğu "Körpü-Bina-Tikinti" MMC-də sürücü işləyən Yevlax rayon sakini, 1987-ci il təvəllüdlü Xəlilov Elşən Eyvaz oğlunun iyulun 12-də işğaldan azad edilmiş Qaraxanbəyli kəndində minaya düşməsi ilə bağlı məlumat yayıb.

Rayon prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, iyulun 12-də saat 11:00 radələrində "Körpü-Bina-Tikinti" MMC-də sürücü işləyən Yevlax rayon sakini, 1987-ci il təvəllüdlü Xəlilov Elşən Eyvaz oğlunun işğaldan azad edilmiş Qaraxanbəyli kəndi ərazisində iş zamanı Vətən müharibəsində Ermənistan tərəfindən istifadə edilən və beynəlxalq hüquqla qadağan olunmuş kaset bombasının partlamamış bombacığına toxunaraq müxtəlif dərəcəli bədən xəsarətləri alması faktı ilə bağlı Füzuli Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 29, 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürməyə cəhd), 29, 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürməyə cəhd) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda intensiv istintaq-əməliyyat hərəkətləri həyata keçirilir.






# 53 İLLİK HƏSRƏTƏ SON - İTALİYA ÇEMPİON!

**Nəhayət, hamının böyük həyəcanla izlədiyi futbol üzrə sayca 16-cı Avropa çempionatı başa çatdı. "Avro-2020"nin final matçında İngiltərə və İtaliya komandaları üz-üzə gəldilər.**

İtaliya-İngiltərə finalını təxminən eyni gücdə olan komandaların qarşılaşması saymaq olardı. Çünki "Avro-2020"dən əvvəl FIFA reytinqində İngiltərə 4-cü, İtaliya isə 7-ci sırada idi. Qitə çempionatlarında da inamla çıxış edən hər iki komanda finala 5 qələbə və 1 heç-heçə ilə irəliləmişdir. Nəticədə finala kimi İtaliya millisinin məğlubiyyətsiz seriyası 33 oyuna çatmışdır. İngiltərə isə ardıcıl 12 oyundan yalnız birində qələbə qazana bilməmişdi.

Bundan başqa, hər iki komandanın heyəti əsasən yerli çempionatda çıxış edən futbolçulardan təşkil olunmuş, cəmi 3 legionerləri var idi. İtaliyanın iki oyunçusu "Çelsi"də (Emerson və Jorjinyo), biri isə Fransa "PSJ"-ində (Marko Verratti), İngiltərənin iki oyunçusu Almaniya "Borussiya Dortmund"unda (Jude Bellinqam və Jadon Sanço), Kieran Trippiyer isə "Atletiko"da (Madrid) çıxış edir.

Ümumiyyətlə, heyətlərdən danışsaq, İtaliya millisində yalnız üç futbolçu (Cian Luici Donnarumma, Leonardo Bonuççi və Jorjinyo) bütün 6 oyunda start heyətində meydana çıxmışdır. Yalnız qapıçı Alex Meret "Avro-2020"də oynamamışdır.

Türkiyədən sonra yarışın ən gənc komandası olan İngiltərə millisində isə 6 futbolçu (Jordan Pikford, Con Ston, Deklan Rays, Kalvin Fillips, Rahem Sterlinq və Harri Keyn) 6 oyunun hamısında start heyətində meydana çıxmış və ümumi heyətdəki 6 futbolçunun xidmətinə ehtiyac olmamışdı.

Finalçıların böyük turnirlərdə əvvəlki görüşlərinə gəlincə, italyanların aşkar üstünlüyü göz önündə idi. İtaliya millisi "Avro-1980" çərçivəsində Turində 1:0, "Avro-2012"nin 1/4 finalında Kiyevdə isə penaltilər seriyasında 4:2 (əsas və əlavə vaxt - 0:0) hesabı ilə qalib gəlmişdir. Dünya çempionatlarına gəlincə, DÇ-1990-da 3-cü yer uğrunda görüşdə və DÇ-2014-də qrupda italyanların eyni hesablı (2:1) qələbəsi qeydə alınmışdır.

Yalnız finalın Londonda keçirilməsi ingilislər üçün əlavə üstünlük ola bilərdi. Amma turnirin əvvəlindən digər komandalara nisbətən nümayiş etdirdiyi futbolla italyanların bir addım öndə olduğunu demək olardı.

Qarşılaşmada ingilislər 5-li müdafiə xətti ilə meydançaya düzülmüşdülər. Təbii ki, bu da başadüşülən idi. Çünki oyunu daha çox meydançanın rəqibə aid hissəsində quran italyanlara qarşı 3 mərkəz müdafiəçisi ilə başlamaq normal sayıla bilərdi.

Niderlandlı referi Byörn Kuypersin start fitindən sonra İngiltərənin baş məşqçisi Qaret Sautqeytin düzgün oyun planı vurulan erkən qolla öz təsdiqini tapdı. Belə ki, 2-ci dəqiqədə qurulan əks-hücum anında sağ cinah müdafiəçisi Trippiyerin ötürməsi zamanı sol cinah müdafiəçisi Şou komandasını hesabda irəli çıxartdı. Qoldan sonra ingilislər topu rəqibə verərək hesabı qorumağa çalışdılar. Bəlkə də vurulan erkən qol komandanı daha fərqli futbol nümayiş etdirməsinə mane oldu. Çünki İngiltərənin hazırkı heyəti daha çox hücum futbolu oynamağa imkan verir.

Qoldan sonra komanda müdafiə olunacağını göstərərək İtaliyaya daha rahat futbol oynamağa şərait yaratdı və nəticədə italyanlar oyunda nəzarəti ələ keçirdilər. Onlar qısa ötürmələrə üstünlük verərək oyunu meydançanın İngiltərəyə aid hissəsində qurmağa başladılar.

İngiltərə millisi isə müdafiə olunmaqla, yaranan ani əks-hücumlarda qol epizodları yaratmağa çalışırdı. Lakin bundan da istifadə edə bilmirdi. Çünki İtaliya futbolçuları meydançada elə düzgün yerləşmişdilər ki, rəqibə boş zona qalmırdı. Qonaqlar itirilən hər topu tez zamanda qazanmağı bacarırdılar. Bir sözlə, İngiltərə yığmasını italyalı həmkarları topun dalınca daha çox qaçmağa məcbur edirdilər. Lakin bütün bunlara baxmayaraq, ilk hissədə başqa qol olmadı.

Fasilədən sonra italyalı çalışdırıcı Roberto Mançini hücum xəttini daha da gücləndirdi. Kyezanı hücumun sol cinahına çəkərək mərkəz hücumçusu İmmobileni Berrardi ilə əvəzlədi. Bu dəyişikliklərdən sonra italyanların rəqib cərimə meydançasında üstünlüyü daha da artdı. Belə epizodlardan birində - 68-ci dəqiqədə künc zərbəsindən sonra qapı qarşısındakı qarışıqlıqdan istifadə edən Bonuççi hesabda bərabərliyi bərpa etdi - 1:1.

Qoldan sonra İngiltərənin müdafiə xəttini aşmaqda çətinlik çəkən İtaliya futbolçuları uzaqdan zərbələrlə qol vurmağa çalışdılar. Lakin fiziki yorğunluq hər iki komanda futbolçularının psixoloji olaraq qarşılaşmanı əlavə vaxta aparmaq istəklərini aydın göstərdi.

Əlavə olunan 30 dəqiqədə də tərəflər hesabda irəli çıxa bilmədilər. Yekunda qalibi müəyyənləşdirmək üçün penalti zərbələri yerinə yetirildi. Qapıçı Donnarummanın möhtəşəm qurtarışları sayəsində penaltilərdə 3:2 hesabı ilə qələbə qazanan İtaliya millisi 53 illik fasilədən sonra "Avro-2020"nin qalibi oldu. Bununla da "Skuadra adzurra" məğlubiyyətsizlik seriyasını 34 matça çatdırdı.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**Final**

İtaliya - İngiltərə - 1:1 (Penaltilər seriyası - 3:2)
Qollar: Lyuk Şou, 2 (0:1), Bonuççi, 67 (1:1)
Baş hakim: Byörn Kuypers (Niderland)
London. "Uembli" stadionu






## Mançinidən çempionluq sözləri

**İtaliya millisinin baş məşqçisi Roberto Mançini "Avro-2020"nin finalında İngiltərəyə qalib gəldikləri oyundan sonra açıqlama verib.**



O, futbolçularının yaxşı oynadığını bildirib: "Erkən qol buraxdıq, bizim üçün çətin oldu. Ancaq sonra komandam sona qədər üstün oldu. Gözəl futbolçularım var. Başqa nə deyəcəyimi bilmirəm. Bu, İtaliya xalqı, bütün azarkeşlər üçün vacib bir uğurdur. Ümid edirəm ki, azarkeşlər indi bu qələbəmizi qeyd edir".

## Sautqeyt çox məyusdur

**"Çox məyusuq. Oyunçular bacardıqlarını etdilər. Sözün əsl mənasında hər zamankı kimi çalışdılar. Rəqib də çox yaxşı oynadı". Bu sözləri İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeyt "Avro-2020"nin finalında İtaliyaya uduzduqları matç barədə danışarkən deyib.**



O, görüşdən sonra keçirilən mətbuat konfransında məyusluğunu belə ifadə edib: "Bəzən topu özümüzdə yaxşı saxlaya bilmədik. Xüsusən də ikinci hissənin əvvəllərində. Ancaq futbolçular bu oyuna görə cəza ala bilməzlər. Onlarla işləmək çox xoşdur. Bu gün paltardəyişmə otağında inanılmaz dərəcədə məyusluq yaşadıq".

Sautqeyt penaltilər seriyasında zəif çıxış etmələri barədə deyib: "Buna görə mən cavabdehəm. Məşq vaxtı penaltilər üzərində çalışanları seçdim. Biz indiyədək komanda şəklində qalib gəlmişik və bu gün hamımız birgə uduzmuşuq. Ancaq penalti məsələsinə gəldikdə, bu mənim seçimimdir, tamamilə özümə aiddir. Yaxşı hazırlaşmışdıq və oyuna möhtəşəm başladıq. Amma təəssüf ki, zərbələri qola çevirə bilmədik. Futbolçular isə daha çoxunu edə bilmədikləri üçün özlərini qınamamalıdır".

## Bombardir Ronaldu oldu

**"Avro-2020"nin ən yaxşı bombardiri müəyyənləşib. Bu, Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldudur. 36 yaşlı oyunçu sözügedən turnirdə 5 qol (3-ü penaltidən) vurub.**



Çexiya millisinin oyunçusu Patrik Şik də eyni sayda fərqlənib. Ancaq Ronaldu əlavə göstəricilərdə onu üstələyib. Kriştianu 1 qol ötürməsi versə də, Şik bunu bacarmayıb. Bundan əlavə, portuqaliyalı futbolçu (360 dəqiqə) Şiklə (404 dəqiqə) müqayisədə meydanda daha az dəqiqə olub.

Qeyd edək ki, Harri Keyn (İngiltərə), Romelu Lukaku (Belçika), Kərim Benzema (Fransa) və Emil Forsberq (İsveç) hərəyə 4 qolla 3-6-cı pillələri bölüşdürüblər.



## «Biz qələbəyə layiqik»

**"Bu, böyük hekayədir. Xəyalımız gerçəkləşdi. Həqiqətən də bu, sadəcə inanılmazdır. Yarışa yeni başlayanda bir nağılın ecazkar varlığını hiss etmişdik. Hər gün bu hiss yalnız böyüyürdü".**

Bu sözləri İtaliya millisinin kapitanı Corco Kyellini "Avro-2020"nin finalında İngiltərəyə qalib gəldikləri matç barədə danışarkən deyib.

O, UEFA-nın rəsmi saytına açıqlamasında fikirlərinə belə davam edib: "Biz 2006-cı il dünya çempionatında əlində kubok olan Kannavaronun şəklini təsəvvür etdik və bu, bizə uğur gətirdi. Şanslıyam, çünki əvvəlcə Buffonla bir yerdə oynamışam, indi isə Donnarumma ilə birgə oynayıram. Çətin oyun idi. Görüşə pis başladıq. Xüsusilə, tribunadakı azarkeşlər rəqibə əlavə enerji verdikləri üçün bizə çətin oldu. Ancaq sakit və soyuqqanlı davrandıq. Bu, vacib idi. Fasilədə danışdıq, ötürmələri yaxşılaşdırmağın, qapıya zərbələr vurmağın lazım olduğunu müzakirə etdik. Qalib gəlməyin yeganə yolunun oyuna nəzarət etmək olduğuna qərar verdik.

Bu qələbəni xəyal edirdik və indi tarix yazdıq. Avropa çempionu olduq. Biz inanılmaz dərəcədə xoşbəxtik. Biz qələbəyə layiqik. Möcüzəvi hadisələrin əlaməti sadəcə havada hiss olunurdu. Bütün İtaliya bu qalibiyyətə layiqdir. İndi zövq almağın vaxtıdır. Həmişə futboldan sevinc və zövq alaraq oynamağa çalışmışıq. İlk dəqiqələrdəki şoka baxmayaraq, oyuna nəzarəti ələ aldıq və sona qədər qoruduq".

## Pedri ən yaxşı gənc futbolçu seçildi



**"Avro-2020"nin ən yaxşı gənc futbolçusu müəyyənləşib. Yarışın ən yaxşısı İspaniya millisinin üzvü Pedri seçilib.**

Pedri başa çatan turnirdə 629 dəqiqə meydanda olub. O, 6 matça çıxıb. Pedri ümumilikdə 76,1 km məsafə qət edib. 18 yaşlı yarımmüdafiəçinin verdiyi ötürmələrin dəqiqliyi isə 92,3 faiz olub.

Qeyd edək ki, İspaniya yarımfinalda İtaliyaya uduzaraq yarışda mübarizəni dayandırmışdı.

## "Futbol Romaya gedir, Romaya!"

**"Avro-2020"nin finalında İngiltərəyə qalib gələrək kuboku qazanan İtaliya millisinin müdafiəçisi Leonardo Bonuççi oyundan sonra etdiyi hərəkətlə diqqət mərkəzinə düşüb.**

İngilis azarkeşlər oyun boyu mütəmadi olaraq "Futbol evinə dönəcək" şüarı səsləndiriblər. Bonuççi isə matçın final fitindən sonra kameraya yaxınlaşaraq qışqırıb: "Futbol Romaya gedir, Romaya!"



# Zaqatala Suvarma Sistemləri İdarəsi
## *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

**LOT 1:** Torpaq məcralı Qandax kanalının beton üzlüyə alınması və üzərindəki qurğularla birlikdə əsaslı təmiri işləri üçün mal-materialların satın alınması

Tender iştirakçıları öz tender təkliflərini elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının maddi-texniki imkanları, iddiaçının faktiki yerləşdiyi ünvan, maliyyə vəziyyəti. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Məlumat mübadiləsi yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə aparılır; tender təklifləri, eləcə də bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Malgöndərənlər (podratçılar) tender təkliflərini, eləcə də bütün sənədləri və müraciətləri dövlət satınalmaları üzrə vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Müsabiqədə göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər və təkliflər qəbul olunmayacaq. Tender zərflərinin açılışı, tenderin qiymətləndirilməsi və bütün prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır. Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. Qanun və digər aidiyyəti normativ hüquqi aktlar ilə Portalın qanunvericilik hissəsində (https://etender.gov.az/laws) tanış ola bilərsiz. Əlaqələndirici şəxs: Baş mühasib Şükür Əliyev, əlaqə nömrəsi +99451 541-34-31).

**İştirak haqqı: LOT 1 - 100 manat**
**Zaqatala Suvarma Sistemləri İdarəsi**
**H/h: AZ02CTRE00000000000002350201**
**VÖEN: 5100135161**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**
**Büdcə təsnifatı: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

**Təşkilati və hüquqi sənədlər:**
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında Dövlət Vergi Xidmətindən arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən maliyyə hesabatının təsdiq olunmuş surəti;*
- *təsdiq olunmuş rekvizitlər barədə məlumat;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *nizamnamə;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə Dövlət Statistika Komitəsindən arayış.*

***İxtisas göstəriciləri:***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə Dövlət Vergi Xidmətindən arayış;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə Ədliyyə orqanından məlumat;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçuların peşəkarlıq fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyəti ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə DİN və ya "ASAN xidmət" mərkəzlərindən məlumatlar;*
- *Digər sənədlər: maddi texniki bazası, işçi sayı, əsas vəsaitləri barədə geniş arayış.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **03 avqust 2021-ci il saat 12:00-a** qədər və tender təklifi və bank təminatı sənədlərini **11 avqust 2021-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçının təklifləri **12 avqust 2021-ci il saat 12:00-da** açılacaqdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

14-18 yaş arası uşaqların və Uşaq Səfir Məclisinin üzvləri üçün yay məktəbinin təşkili

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi nəzərə alınmaqla.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçısı lazımi texniki və maliyyə imkanlarına malik olmalıdır.

Azərbaycan Beynəlxalq Bank ("ASAN Ödəniş" ilə Portal vasitəsilə ödəniş olunmalıdır)

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi-002306-2318501;**
**Funksional təsnifat-00113;**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**
**İştirak haqqı-100 manat**
**İştirak haqqı heç bir halda geri gaytarılmır.**

Bütün iddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsi ilə **05.08.2021-ci il saat 13:00-a** kimi təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini **05.08.2021-ci il** tarixə kimi və tender təklifi ilə bank təminatı sənədlərini **13 avqust 2021-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **16 avqust 2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci Əsas vəsaitlərin qiymətləndirilməsinin
## *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (+99412) 537-22-01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 27.07.2021-ci il saat 10:00-dək qəbul olunur.

**Ünvan: Bakı ş., İnşaatçılar pr., 45.**
**Telefon: (+99412) 537-22-01**
**E-mail: aliyev.ramiz@adpk.edu.az**

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Azərbaycan Respublikası V Ümumrespublika Uşaq Forumunun təşkili işləri

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi nəzərə alınmaqla.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçısı lazımi texniki və maliyyə imkanlarına malik olmalıdır.

Azərbaycan Beynəlxalq Bankı ("ASAN Ödəniş" ilə Portal vasitəsilə ödəniş olunmalıdır)

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi-002306-2318501;**
**Funksional təsnifat-00113;**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**
**İştirak haqqı-100 manat**
**İştirak haqqı heç bir halda geri gaytarılmır.**

Bütün iddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə **05.08.2021-ci il saat 13:00-a** kimi təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini **05.08.2021-ci il** tarixə kimi və tender təklifi ilə bank təminatı sənədlərini **13 avqust 2021-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **16 avqust 2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


# OXUCULARIN NƏZƏRİNƏ! "AZƏRBAYCAN"
## *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat
*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat
*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
## Azərbaycan Respublikasının dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində "Balakən şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması" işlərinin satın alınması üçün *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili şöbəsindən (əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: (+ 99 412) 431-47-67/87 - daxili 1033, e-mail: **i.tagiyev@azersu.az** və Novruzov İntizam Cəmil oğlu, telefon: (+ 99 412) 431-47-67 - daxili 2259, e-mail: **intizam.novruzov@azersu.az)** ala bilərlər.

**İşlərin qısa təsviri:**

Magistral su kəmərinin çəkilməsi, su anbarlarının tikintisi və digər əlaqədar işlər.

**Tenderdə iştirak haqqı: 500,00 (beş yüz) AZN**
**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapital bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender iştirakçıları tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (konkret subpodratçının adı göstərilməklə);*
- *İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18.08.2021-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **26.08.2021-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində **27.08.2021-ci il saat 16:00-da** açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## Qaynaq çubuqlarının satın alınması
## *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 iyul 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

# "Azərbaycan İnvestisiya Şirkəti" ASC
## hədiyyə bağlamaları (şirniyyatlar), hədiyyəlik şüşə, AİŞ loqolu bloknot və AİŞ loqolu karton çantaların
## *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan şirkətlər (012) 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 15.07.2021-ci il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları

**ZAUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəis müavini İlqar Məmmədova anası

**ELDA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4010
Sifariş 1251
Qiyməti 40 qəpik